Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Ruhumuzun Qidası Kitablar

14 fevral – Beynəlxalq kitab bağışlama günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı-2023**

Tərtibçi Nərmin Qədəmullazadə

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

**Ruhumuzun Qidası Kitablar-** 14 fevral Beynəlxalq kitab bağışlama günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Qədəmullazadə; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.-s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023.**

# Giriş

2012-ci ildən qeyd edilən bu bayram ABŞ-da məşhur “Delightful Children’s Books” uşaq kitabı saytının yaradıcısı Emmi Brodmoorun adı ilə bağlıdır. Bu ideyanı ona balaca oğlu verib. O, anasından niyə insanların bir-birinə kitab bağışladığı xüsusi gün olmamasını soruşub. 2013-cü ildə Cənubi Afrikadan Braziliyaya, Sinqapurdan İngiltərəyə, Hindistandan Yeni Zellandiyaya qədər fərqli ölkələrdən olan bloqqerlər birlikdə hərəkət edərək insanları həmin günü “Uşaqlara Kitab Vermə Günü” olaraq qeyd etməyə çağırıb. Bununla da dünyanın bir çox ölkəsində 14 fevral Dövlətlərarası Kitab Bağışlama Günü olaraq qeyd olunmağa başlayıb. Bu, təqvimdə ən gənc bayramlardandır. Mövcud olduğu ildən bu təşəbbüs bütün dünyada dəstək qazanır və indi də yeni iştirakçılar cəlb etməkdə davam edir. Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi mühüm rol oynayıb. Bu gün uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət yaradan bütün insanları birləşdirir. Artıq bir neçə ildir ki, bu gün Azərbaycanda da bir sıra tədbirlər həyata keçirməklə qeyd olunur. Bu bayramın əsas məqsədi adından da göründüyü kimi kitab bağışlayaraq, gənc nəsillərin mütaliəyə olan həvəsini daha da artırmaqdır. Bu münasibətlə dünyanın bir çox ölkəsində kitab bağışlama aksiyaları həyata keçirilir. Unutmayaq ki, dünyanın ən gözəl, ən dəyərli hədiyyəsi kitabdır. Hər il minlərlə həm oxunmuş, həm də yeni kitablar dünyanın bütün istiqamətlərinə yola düşür və uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək sevinci yaradır.

# Kitablar haqqında maraqlı məlumatlar

Kitablar ən qədim dövrlərdən bəri var olan və həyatımızın hər sahəsində ehtiyac duyduğumuz əsərlərdir. Eramızdan əvvəlki minilliklərdən mövcud olan kitabların materialı dəyişsə də, məqsədi, amalı eyni olmuşdur. Daşdan, dəridən, taxtadan, papirus kağızlarından, müasir kağızlardan yaradılan kitablar böyük təkamül prosesindən keçmişdir. Statistikaya görə hazırda dünyada 130 milyon adda kitab var. İlk çap edilən kitablara böyük xərc və əmək sərf edilirdi. Buna görə də, kitabların oğurlanmasının qarşısını almaq üçün kitabxanalarda saxlanarkən rəflərə zəncirlənirdi. Dünyanın ən bahalı kitabı Leonardo da Vinçinin "Lester kodeksi" sayılır. Qiyməti 30 milyon dollardan artıq dəyərləndirilən bu kitab məşhur milyardçı Bill Qeytsə məxsusdur. Ən uzun adlı kitab 1633-cü ildə Londonda nəşr olunub. Kitabın adı 45 sətirdən ibarətdir. Ən böyük lüğət sayılan "Alman lüğəti"nin hazırlanması 1854-cü ildə başlanılaraq, 1971-ci ildə tamamlanıb. Kitab 33 cilddən, 33519 səhifədən ibarətdir. Belə qeyri-adi kitablardan biri də Braziliyada saxlanılır. Rio-de-Janeyro şəhərinin 400 illik yubileyi münasibətilə buraxılan həmin 200 səhifəlik xatirə kitabı paslanmayan poladdan hazırlanıb. Dünyanın ən böyük kitabxanası isə Vaşinqtonda yerləşən Amerika Birləşmiş Ştatları Konqresinin kitabxanasıdır. Bu kitabxanada 470 dildə 30 milyondan artıq kitab, dünyanın müxtəlif ölkələrinin







milyondan artıq qəzet-jurnalları, 6 milyon əlyazma, 5 milyona yaxın xəritə, 12 milyon şəkil və s. saxlanılır. İl ərzində bu kitabxanadan istifadə edənlərin sayı 2 milyona yaxındır. Kitabxanada 3600 əməkdaş çalışır.

Yazı makinalarının istehsalı yazıçıların işini nisbətən asanlaşdırmışdır. İlk yazı makinasına isə görünür, əllə yazmaqdan yorulmuş Mark Tven sahib olmuşdur. Onun 1976-cı ildə çıxan, klassik uşaq ədəbiyyatı hesab edilən "Tom Soyerin macəraları" kitabı da makinada yazılan ilk kitab kimi tarixə düşmüşdür. Dünya ədəbiyyatına və mədəniyyətinə böyük təsir göstərmiş







ingilis yazıçısı Con Ronald Ruel Tolkinin məşhur "Üzüklərin hökmdarı" trilogiyası bir göz qırpımında oxunsa da, 16 ilə, yəni, ən uzun müddətə yazılmış kitab hesab edilir. Bunun tam əksi olaraq ən qısa vaxta, yəni 2,5 günə yazılmış kitab isə Con Boynun "Zolaqlı pijamalı uşaq" romanıdır.

Kitablara ən çox mövzu olan qəhrəman isə Napoleon Bonapart hesab edilir. Günümüzədək bu tarixi şəxsiyyət haqqında 10 mindən çox kitab yazılmışdır. Görünür, Napoleon Avropanı fəth etdiyi kimi yazıçıların da qəlblərini fəth etmişdir.

# Dahi şəxsiyyətlərin kitablar haqqında söylədikləri fikirlər

Yaxşı kitab çox qiymətli xəzinədir.

**Həsən bəy Zərdabi,**
*yazıçı*

Kitab hələ də müqəddəsdir mənim üçün. Söz mühüm və hərf isə hələ də müəmmadır.

**Əlif Şəfəq,**
*yazıçı*

Kitablar qocalıqda ən yaxşı dost, cavanlıqda ən yaxşı rəhbərdirlər.

**Samuel Smayls**
*yazıçı*

Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir.

**A.İ.Gertsen**
*yazıçı*

İdmanın bədənə göstərdiyi təsiri kitab beyinə göstərir.

**E. Hant**
*yazıçı*

Dünyada nə qədər kitab var belə
Çalışıb əlləşib gətirdim ələ
Oxudum, oxudum, sonra da vardım
Hər gizli xəznədən bir dürr çıxardım.

**Nizami Gəncəvi**
*şair*

Hər kitab özü bir xəzinə olmaqla yanaşı, həm də neçə-neçə başqa xəzinələrə açardır..

**Əbu Turxan,**
*professor*

Az pulla böyük sərvət əldə etmək istəyirsənsə, – kitab al!

**Əbu Turxan,**
*professor*

Kitab illər keçdikcə daha xoş gələrsə, bu onun yaxşı olmasının əlamətidir.

**Georq Lixtenberq,**
*filosof*

Kitab toplamaq yaxşı işdir, onları oxumaq isə daha faydalıdır.

**Françesko Petrarka,**
*şair*

Bir insanın dəyəri oxuduğu kitablarla ölçülür.

**Herbert Spencer,**
*Filosof*

Yaxşı ki, cahillər kitab oxumurlar.
Yoxsa kitab nüfuzdan düşərdi.

**Cəlaləddin Rumi,**
*şair*

Oxuyun və öyrənin. Ciddi kitablar oxuyun. Qalanını həyat edəcək.

**Fyodor Dostoyevski,**
*yazıçı*

## Kitab bağışlama günü ilə əlaqədar tədbirlər

Uşaq Kitabxanalarında 14 fevral - "Beynəlxalq kitab bağışlama günü" münasibətilə *"Kitabları sevək və yaşadaq"* adlı tədbir keçirilməsi məqsədəuyğundur. Tədbir kitabxananın böyük oxu zalında keçirilir. Tədbirdə kitabxananın direktoru və digər rəhbər işçilər iştirak edirlər. Məktəblilərə nağıllar, şeirlər söylənilib, onların sualları cavablandırılır. Oxuculara mütaliənin əhəmiyyətindən, gənclərin dünyagörüşünün inkişafında kitabların rolundan danışılır. Bildirilir ki, mütaliə müasir dövrün və tarixi keçmişin hadisələri ilə yaxından tanış olmağa, həyata obyektiv baxışın formalaşmasına kömək edir. Daha sonra tədbirin 2-ci hissəsi uşaqların ifasında milli rəqslə başlanır. Daha sonra kitab geyimində olan uşaqlar bir-bir səhnəyə gələrək bu gün ilə əlaqədar şeirlər söyləməyə başlayırlar.

*Kitabın Dostu* | **Ələmdar Quluzadə.**

**I iştirakçı**

Sınağa, imtahana
Kitablar sinə gərir,
Görmədiyin dünyanı
Kitab sənə göstərir.

Kitab kimini şair,
Kimini alim edib.
Sənin müəllimini
Kitab müəllim edib.

Kitabın min sirri var
Sənə deyim birini,
Kitab oxumayana
Kitab vermir sirrini.

Kitabla dostluq edən
Dostunu düz tanıyır,
Kitab öz dostlarını
Hamıdan tez tanıyır.

*Kitabların anası* | **Zahid Xəlil.**
**II iştirakçı**

Əlifba kitabıdır,
Kitabların anası.
Hər hərf bir göyərçin,
Hər hərf su sonası.

Nə çox səs var dünyada
Adam səsi, quş səsi.
Təbiətin dili var,
Düşündürür hər kəsi.

Səslərdən söz yaranır,
Sözdən gözəl cümlələr.
Sözə - qızıl deyibdi,
Söz qədrini bilənlər.

Böcəyin də səsi var,
Küləyin də səsi var,
Hər səsin də yazıda
Bir cür işarəsi var.

*Kitab* | **Xanımana Əlibəyli.**

**III iştirakçı**

İnsanlar çəkdi zəhmət,
Günü-günə qatdılar
Dünyada gözəl nemət
Kitabı yaratdılar.

Neməti təbiətin
Gün kimi işıq açdı.
Həyatda hər sənətin
Sirrini bizə açdı.

O hər zaman cavandır
Yaşı ötsə də mini,
Bizə neçə zamandır
Öyrədir Nizamini.

Çevrilib çox dillərə
Sanki sirrdir hər biri,
Yol tapıb könüllərə
O sevdirdi Sabiri.

Durub iki qəhrəman
Dolabda qoşa-qoşa.
Baxır cürətli Cırtdan
Cəsarətli Qavroşa.

Kitab sanki bir quşdur,
Mizin üstə qonmuşdur.
Kitaba salsan meyil

Səndən ayrılan deyil.
*Kitab* | **Süleyman Rüstəm**
**IV iştirakçı**

Hər evin yaxşı kitabdır bəzəyi
Döyünür onda həyatın ürəyi,
Onun hər kəlməsi ölkəmdə işıq mənbəyidir
Bir əməl mənbəyidir, bir yaraşıq mənbəyidir.
Bənzəyir hər sözü hər gün uzanan dost əlinə
Deyir insana qarış, gəl bu həyatın selinə,
Min işıq yansa da hər evdə işıqlanmaz otaq,
Yanmasa məncə beyinlərdə, ürəklərdə çıraq.

*Kitab* | **Bəxtiyar Vahabzadə.**

**V iştirakçı**

Kitab böyük müəllimdir,
Sinəsində min aləm var.
O səni bir insan kimi
Gah güldürər, gah ağladar.

Dili yoxdur, o danışır,
Hər bir şeydən xəbər verir.
Ata kimi sənə bəzən
Kitab doğru yol göstərir.

Bu dünyanın hər sirrini
Bizə deyir bu kitablar.
Ömrümüzün yollarına
Nur çiləyir bu kitablar.

*Alqış sədaları altında balacaları yola salırlar*

İndi isə səhnəyə 14 fevral - "Beynəlxalq kitab bağışlama günü" haqqında məlumat vermək üçün məktəbli şagird gəlir.

Əziz Qonaqlar, bu gün sizlərə kitab bağışlama günü haqqında danışmaq istəyirəm.

14 fevral tarixi xarici ölkələrdə 2012-ci ildən etibarən, uşaqlara kitab bağışlayan və onları oxumağa həvəsləndirən insanları birləşdirən "Beynəlxalq Kitab Bağışlama Günü" kimi qeyd olunur. Bu tarix, xüsusilə də, kitab oxumaq imkanı müəyyən səbəblərdən məhdud olan uşaqlara kitab hədiyyə etmək üçün əlamətdar gün kimi təqvimə daxil olub. Son illər Azərbaycanda da Beynəlxalq Kitab Bağışlama Günü bir sıra tədbirlərlə qeyd edilir. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında da müntəzəm olaraq bu gün münasibətilə mütaliəni təbliğ etmək üçün aksiyalar keçirilir, kitablar hədiyyə olunur. "Beynəlxalq Kitab Bağışlama Günü" uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək sevinci yaradır.

*İştirakçı alqışlarla yola salınır*

Növbəti çıxış üçün birincilər səhnəyə gəlir. Onlar xorla kitablar mahnısını ifa edir.

**Musiqi: Oqtay Zülfüqarov**

**https://portal.azertag.az/az/node/12111**

Kitablarda nə qəşəng
şəkillər var rəngbərəng
Kitablarda mən hələ
Baxıram şəkillərə

Nəqarət
Lalalala lalala
Lalalala lalala

Tədbirin sonunda uşaq və yeniyetmələr arasında mütaliənin təbliği məqsədilə iştirakçılara Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən Azərbaycan və dünya müasir, klassik ədəbiyyatı nümunələri hədiyyə edilir. Kitabxana rəhbərliyi tərəfindən oxu mədəniyyətini təbliğ edən "Açıq kitabxana" layihəsi, kitab hədiyyə aksiyası, kitabxana oxucularının dəyərləndirilməsi layihələri təşkil edilir.

## Kitab sərgisi










14 fevral - “Beynəlxalq kitab bağışlama günü” ilə əlaqədar kitabxanada kitab sərgisi keçirmək məqsədə uyğundur. Sərgidə uşaqlara aid bir birindən maraqlı kitablar nümayiş edilir. Sərginin təşkil olunmasında əsas məqsəd Azərbaycan yazarlarının ədəbi irsi ilə oxucuları tanış etmək, uşaqların intellektual inkişafında mühüm rol oynayan kitabları oxuculara sevdirmək və mütaliəyə həvəsi artırmaqdır. Metodist gələn qonaqlara kitablar haqqında ətraflı məlumat verir. Sonda qonaqlara maraqlı gələn kitabları kitabxananın xidmət şöbəsində oxucu kimi qeydiyyatdan keçdikdən sonra kitabxanada oxumaq üçün əldə edə bilirlər. İndi isə sərgidən bir neçə şəkilləri sizi təqdim edək.

## Viktorina

Kitabxananın nağıl otağında kitabxanaçı balaca oxucularla “Kitab bağışlama günü” ilə bağlı viktorina keçirir. Kitabxanaçı bir-birindən maraqlı,düşüncəli sualları balacalara ünvanlayır və uşaqlar doğru cavabı tapmağa çalışırlar. Sonda ən çox doğru cavab tapan oxucu kitabxana tərəfindən mükafatlandırılır.

1.Beynəlxalq Kitab Bağışlama Günü nə zaman qeyd olunur?
**Cavab:** 14 fevral

2.Kitab sözündə neçə sait var?
**Cavab:** 2 sait

3.Hansı növ kitab sizə hədiyyə veriləndə sevinirsiz?
**Cavab:** -

4.Kitablarla bağlı hansı şeirləri söyləyə bilərsiz?

Kitablar mənim dostum
Onlarla ucalıram
Kitablar düzgün yolum
Zirvəyə yol alıram
Mənim üçün kitabsız
Həyatın mənası yox
Düzgün mənalı yol
Kitabla başlanan yol
Həyatın sirrlərini
Bizə deyir kitablar
Ömrümüzün yollarına
Nur çiləyir kitablar
Gizli xəzinə kimi
Kitabları axtaraq!
Qiymətli əşya kimi
Kitabları qoruyaq!
Oxudum bir çox kitab
Gah güldüm, gah ağladım.
Dil açdı sanki kitab
Söhbət etdim, danışdım
Oxunan bir çox kitab
Yaddaşlarda qalandır
Ən çox sevdiyim kitab
Çərpələng uçurandır.
Nərgiz Mirzəyeva

5.Beynəlxalq Kitab Bağışlama Günü neçənci ildən keçirilir?
**Cavab:** 2012-ci il

6. İndiyə kimi sizə hansı  kitablar bağışlanıb?

**Cavab: -**

7.Qədimdə  kitablar nədən düzəlirdi?
**Cavab:** Daşdan, dəridən, taxtadan, papirus kağızlarından

8. Dünyanın ən bahalı kitabı hansıdır?
**Cavab:** Leonardo da Vinçinin "Lester kodeksi" sayılır.

9. Kitab bağışlama gününün əsas məqsədi nədir?
**Cavab:** Gənclərdə və uşaqlarda kitaba məhəbbət, bağışlamaq, hədiyyə etmək sevinci yaratmaq.

10.Qədimdə kitabları qorumaq üçün hansı vasitədən istifadə edirdilər?
**Cavab:** Kitabların oğurlanmasının qarşısını almaq üçün kitabxanalarda saxlanarkən rəflərə zəncirlənirdi.

11.Kitablarla bağlı aforizmlər kim bilir?

**Cavab:** Kitabxana insan ruhunun bütün zənginliklərinin xəzinəsidir. *Q. V. Leybtnis*

Kitablar bizi ötən əsrlərin mənəvi varisi edir. *N.Vəzirov*

Kitablar da dost kimidir, az fəqət yaxşı seçilmiş olmalıdır. *S.J.Harris*

## Kitab ilə bağlı atalar sözləri

Kitabxananın kiçik oxu zalında 14 fevral - “Beynəlxalq kitab bağışlama günü” ilə əlaqədar metodist balaca oxucularla birlikdə yarışma keçirir. Hər kəs ardıcıl olaraq kitablarla bağlı atalar sözü deyir. Sonda balacalara maraqlı nağıl kitabları kitabxana tərəfindən hədiyyə olunur. İndi isə sizlərə həmin atalar sözlərini təqdim edirik:

1.Kitablar insanların yolunu işıqlandırır.
*Çin atalar sözü*
2.Yaxşı kitab sadiq dostdur. Ondan bezəndə hirslənmir, məsləhət istəyəndə aldatmır.
*Türk atalar sözü*
3.Heç bir gəmi bizi kitab qədər uzağa apara bilməz.
*Çin atalar sözü*
4.Kitab bilik xəzinəsidir.
*Ərəb atalar sözü*

5.Kitab bilik mənbəyidir

6.Kitab elmin açarıdır.
*Çərkəz atalar sözü*

7.Kitab insanın cibində daşıdığı bir bağça kimidir.
*Ərəb atalar sözü*

8.Kitablar ruhun qidasıdır.
*Yapon atalar sözü*

9.Kitab insan ruhuna məlhəmdir.
*Yapon atalar sözü*

10.Kitab dilsiz danışan dostdur.

11. Ən böyük hədiyyə kitabdır.

12.Anlayana bir söz bir kitabdır.

13.Kitab sənə fayda verər, səndən heç nə almaz.

14.Kitab hirslənməyən müəllimə bənzər.
*İngilis atalar sözü*

15.Dünyada kitabdan əziz dost yoxdur .

16.Kitablar insanların yolunu işıqlandırır.
*Çin atalar sözü*
17.Kitabsız böyüyən uşaq, susuz böyüyən ağaca bənzər.
*Çin atalar sözü*
18.Həyatı boyu yalnız bir kitab oxumuş insanlardan qorxun.
*Latın atalar sözü*
19.Yaxşı kitab öyünməyə layiqdir.
*Alman atalar sözü*
20. Planınız 1 illikdirsə – düyü əkin, 10 illikdirsə – ağac əkin, 100 illikdirsə – insanlara təhsil verin.
*Çin atalar sözləri*

## Nağıl saatı

Kitabxananın nağıl otağında kitabxanaçı oxuculara Zahirə Dadaşovanın "Kitabla yenidən yaşadım" hekayəsini söyləyir. Hekayəni sizlərə təqdim edək:

Neçə gün idi ki, evdə hamı təzə evə köçmək üçün əşyalarını toplayırdı. Evin girəcəyində əşyalarımızı yığmaq üçün marketlərdən alınmış qutular üst-üstə yığılmışdı. Anam təzə mənzilə özünün dediyi kimi, artıq, lazımsız şeylər aparmaq istəmirdi. Ona görə də babama demişdi ki, kitab dolabında olan kitablar üçün təzə mənzildə yer yoxdur. Mən babama

yaxınlaşdım və dedim: - Baba, kitab dolabında olan, uşaqlıq illərindən belə saxladığın kitabları ver mənə, aparıb uşaq kitabxanasına verim. Babam razılaşmadı: Birdən onlara da lazım olmasa, atsalar....Elə bilərəm ki, hər şeyi itirdim. - Yox baba nə danışırsan. Mən Respublika uşaq kitabxanasını deyirəm. Bax orada mən hətta İtaliya səfirinin öz uşaqlıq kitablarını hədiyyə etdiyi kitabları da görmüşəm. Deməli, onlar belə kitabları toplayırlar. - Əgər elədirsə mənə həmin kitabxananın telefon nömrəsini de, onlarla danışım. Beləcə babam kitabxana rəhbərliyi ilə danışdı, biz maşın tutub kitabları qutuda siyahısı ilə birlikdə kitabxanaya apardıq. Kitabxanada bizi çox səmimi qarşıladılar. Babamın adını, soyadını yazıb gətirdiyimiz kitabları təhvil aldılar. Bu kitablar köhnə latın əlifbası, əski əlifba, kiril qrafikasında yazılmış kitablar idi. Babam kitabları verib çox məyus şəkildə evə qayıtdı. Soruşdum ki, niyə belə bikefsən, cavab verdi ki, elə bil öz uşaqlarımı uşaq evində qoyub gəldim. Aradan bir neçə il keçdi. Bir gün telefon zənginə mən cavab verəsi oldum. Kitabxanadan idi. Onlar R.Zorge adına istirahət parkında keçiriləcək kitab sərgisinə bizi dəvət edirdilər. Bu xəbəri babama dedim və onunla birlikdə sərgiyə baxmağa getdik. Açıq havada təşkil olunan kitab sərgisi möhtəşəm idi. Uşaq yazarları, məktəblilər çıxış edir, mütaliənin əhəmiyyətindən fərəhlə danışırdılar. Biz kitabxana rəhbərliyinə yaxınlaşdıq və bizi dəvət etdikləri üçün təşəkkürürümüzü bildirdik. Kitabxanaçı bizi "Uşaqlığımızı bizə qaytaran kitablar" başlıqlı bir sərgi önünə gətirdi. Burada babamın da uşaqlıq kitabları var idi. Babam kitabxanaya bağışladığı kitablarından birini əlinə götürdü, qəhər onu boğdu, təkcə bu sözləri deyə bildi: elə bilirəm ki, yenidən yaşadım. Bu sərginin yanında həmin kitabların yenicə çap olunmuş, orijinallığını olduğu kimi saxlamaqla latın qrafikası

ilə çap olunmuş kitablar var idi. Kitabxanaçı elə həvəslə danışırdı ki....Deyirdi ki, babamın verdiyi kitabları kitabxananın qızıl fondunda saxlayırlar. O kitabların əsnasında kitabxananın “Bərpanəşr” layihəsi ilə gördüyünüz bu kitablar çap olunub. Bu kitablar indi əl-əl gəzir. Bu kitabları oxuyan minlərlə oxucularımız var. Həm də elə kitablar seçmişik ki, bugünki uşaqlar oxuyanda onlara maraqlı olsun. Böyüklər isə bu kitabları görəndə sevinərək öz uşaqlıq illərini xatırlasınlar. Babamın sözü hələ də qulaqlarımda səslənirdi: “Kitabla yenidən yaşadım”.

**Nağıl müsabiqəsi**




14 fevral - “Beynəlxalq kitab bağışlama günü” ilə əlaqədar kitabxanada nağıl müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Öncədən kitabxananın rəsmi səhifəsində müsabiqə ilə bağlı elan yerləşdirilir. Əsas şərtlər mövzunun “Beynəlxalq kitab bağışlama günü” ilə əlaqədar olması, yaş aralığının 6-10 olmasıdır. Sonda iştirakçılar arasında ən uğurlu 3 nağılın sahibinə kitabxana rəhbərliyi tərəfindən mükafat verilir.

## Şeir müsabiqəsi

Kitabxanada 14 fevral - “Beynəlxalq kitab bağışlama günü” ilə əlaqədar şeir müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Müsabiqədə kitablarla bağlı ən səlis, düzgün intonasiya ilə söylənilən şeir qalib sayılır. Bir neçə şeir nümunələrini sizlərə təqdim edək.

## Kitablar

-Bilirsənmi, a Yaşar,
Nə qədər kitabım var?!
Ad günümdə mənimçün
Gətiriblər kitablar.
Şəkilləri qəşəngdir,
Varaqlayıb baxmışam.
Divanın üstə, rəfə,
Künc-bucağa yığmışam.
Mətbəədə işləyir
Atam yaxşı tanıyır
Yazıçını, şairi.
Evimizə gətirir
Qalın-qalın cildləri.
Atamın dostlarından
Hədiyyədir çoxusu.
Bir adam axtarıram –
Kitabları oxusun...
Yaşar güldü dostuna,
Məsləhət verdi ona:
-Bil kitabın qədrini,
Tozlanmasın künclərdə
Gətirilən kitablar,
Təkcə hədiyyədirmi?
Həm də yaxşı dostdular
Şəkilli, şən kitablar!

## Qulam kitab oxuyur

Bütün günü Qulamın
Kitab düşmür dilindən.
Bütün günü Qulamın
Kitab düşmür əlindən,
Bu dünyanı unudur,
Əyləşir quzu kimi,
Əlində kitab tutur,
İçir onu su kimi.
Balıncın altı kitab,
Yorğanın altı kitab,
Qaldırsan döşəyindən
Çıxar beş-altı kitab.
Qış zamanı oxuyur,
Yay zamanı oxuyur,
Yatmır, bütün gecəni
Bir romanı oxuyur.
Dərsə gedəndə hamı
Yuxu tutur Qulamı!
Ana deyir: -Oğul, dur,
Bu nə cürə yuxudur?
Sinifdə də Qulama
Heyrətlə baxır çoxu.
Dərsi dinləyir....
Amma onu aparır yuxu.
Kitabları həmişə
Gəzdirir qovlugunda,
Ya kəmərin altında,
Ya da ki qoltuğunda.
Kitabla, yatır Qulam,
Kitabla durur Qulam,

Bacısını vuranda
Kitabla vurur Qulam.
Birdən... nə görür nənə,
Evdə düşüb tappatap,
Günayı vurur yenə
Qulam əlində kitab.
-Qulam, vurma Günayı,
Yoxdur onun günahı.
Kitabları birəbir
Zorla yığır çantaya,
Çanta şar kimi şişir,
Az qalır ki, partlaya.
Hamı görəndə onu
Gülür, haray qoparır,
-Baxın çanta topunu
Qulam yenə aparır.
Bir gün gəldi qonaqlar,
Ağıllı, şən uşaqlar...
Söhbət düşdü həyatdan,
Bir də ədəbiyyatdan.
Qulam döndü bir lala,
Gözünü döyə-döyə
Cavab verdi suala
-Yadımdan çıxıb, -deyə.
Bəzən qaşını çatdı,
Bəzən çiynini atdı.
Bəzən dinlədi bir-bir
Kitab haqda tərifi.
Deyə bilmədi, kimdir
Kitabın müəllifi.
- Nəyə gərək bu tərif,
Nəyə gərək müəllif?

Gülüşdülər qonaqlar,
Ağıllı, şən uşaqlar...
Yenə kitab oxumaq
Qulama arzu kimi,
Əlində kitaba bax,
İçir onu su kimi.
Qulama bir iş buyur,
Deyirlər bir ağızdan:
-Qulam kitab oxuyur...
Kitab oxuyur... həm də
Eyvana çıxır Qulam,
Kitab oxuyur, həm də
Rəngli televizorda
Kinoya baxır Qulam.
Gündüz kitab oxuyur.
Sadəcə nəql elədim,
Necə kitab oxuyur!

## Mütaliə ilə parlaq gələcək

Kitablar qoynunda yaşadığımız bu kainatın sirlərini özündə əks etdirən, ətraf aləmdə baş verən proseslərdən xəbərdar sonsuz məlumat mənbəyi, bütün elmlərin açarını özündə gizləyən bir xəzinədir. Elə xəzinə ki, elmə, biliyə, mədəniyyətə, tərbiyəyə gedən yola sahiblik edir. Zamanın durmadan dönən çarxı bizləri daim inkişafda olan, hər gün bir yenilik yaşadığımız xoş gələcəyə doğru aparır.

"Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Bir qalanın sirri" filmini xatırlayaq. Uşaqlıq illərimin sevimli qəhrəmanları: Elşən və Mətanət obrazları. Mətanəti xilas etmək yolunda günlərlə kitab oxuyan Elşənin ani

yorğunluğunda kitablar ona: “Sən hələ bizi oxumamısan, bizsiz bu dünyanın sirlərindən xəbərdar olmazsan”, - deyirlər. Bax, mən də uşaq ağlımla hələ onda dərk edirdim ki, kitablar bilmədiyim, xəbərsiz olduğum sirlər dünyasına bir açardır.

Sonsuz xəzinəyə sahib olmaq üçün kitab oxumalı, yaşadığımız həyatın sirlərinə bələd olmalıyıq. Məktəbdə ilk ədəbiyyat dərsliymiz bu cümlə ilə başlayırdı: “Ədəbiyyat həyatı obrazlı şəkildə əks etdirən söz sənətidir. Ədəbiyyatın əsas vəzifəsi insanları tərbiyə etməkdir”. Elə isə belə bir sual yaranır: Bəs nə üçün biz valideynlər bu gün övladlarımızın tərbiyəsində böyük və əvəzsiz rol oynayan kitablara, xüsusilə də bədii kitablara laqeyd yanaşırıq. Övladlarımızın hər istəyini ölçülməz maddiyatla təmin etdiyimiz halda, kitab almalı, onlarda mütaliəyə maraq oyatmalıyıq. Biz kitabxanaçılar çalışmalıyıq ki, gənc nəsildə oxumağa maraq oyadaq, uşaqları bədii kitabları mütaliə etməyə həvəsləndirək ki, onlar həyatı tanısınlar, həyatın kəşməkeşli yollarında büdrəməsinlər, duruş gətirsinlər.

Bu problemin həlli yolunda ilk atılmalı olan addım, hər bir ailədə kiçicik bir kitabxananın yaradılmasıdır. Övladımız dünyaya gəlib özünü tanıyanda ailəsinin üzvlərini kitab oxuyan, kitaba hörmətlə yanaşan şəxs kimi görməlidir ki, o da kitabı sevsin, onu oxusun. Oxu ki, həyatı öyrənəsən, insanları tanıyasan! Bugünkü gün dünyada həkimlər hətta uşaq dünyaya gəlməmiş, bətndə ikən anaya kitab oxumağı tövsiyə edirlər. Biz valideynlər uşaqlara erkən yaşlarından maraqlı nağıllar, hekayələr oxuyaraq onlarda dinləmə qabiliyyətini formalaşdırmalıyıq. Daha sonra rəngli, şəkilli kitablarla, daha yaxşı olar ki, qabarıq səthli kitablarla onların diqqətini çəkməyi bacarmalıyıq. Övladımız məktəb yaşına çatanda mütaliəyə maraq oyatmaq ilk öncə, ibtidai sinif müəllimlərinin, daha sonra isə biz kitabxanaçıların üzərinə

düşür. Müəllimlər dərs zamanı gözəl və rəvan nitqləri ilə, ifadəli oxumuqla şagirdlərin emosional dünyasına nüfuz etməyi bacarmalı, onlarda şeirə, poeziyaya sonsuz maraq oyatmalıdırlar. Hər şagirdə heç olmasa bir kitabı sevdirib oxuda bilsək, onu o kitabın ixtiyarına tabe etsək, demək ki, hədəfimizi düzgün nişan almışıq və o zaman biz artıq gələcəyimiz üçün rahat ola bilərik. Axı Herman Hessenin təbirincə demiş olsaq, "Kitab ixtiyar sahibidir, idarə edir, oxucu isə ona itaət edir.

## Səhnəcik

Kitab bağışlama günü ilə əlaqədar məktəblilər kitabxananın oxu zalında səhnəcik təşkil edə bilər. Uşaqlar yazıçı Tülin Kozikoğlunun "Yeməyini axtaran tırtıl" hekayəsini səhnələşdirirlər.

**Aparıcı:** Aişə parkda dostları ilə oyun oynayırdı. Aişənin anası parka gəlib onu çağırdı.

**Ana:** Tez ol, Aişə, evə gedirik. Yamanca tərləmisən, xəstələnərsən, aman.

**Aişə:** Ana, xahiş edirəm, hələ evə getməyək. Bir azca da dayanaq, bu gün cümədir axı.

**Ana:** Çox yorğunam, ay qızım, bütün həftə işlədim. Axı mənim də bir az dincəlməyə haqqım var.

**Aişə:** Anacan, onda evə yox, kitabxanaya gedək. Əminəm ki, oturub sakit kitab oxumaq səni də sevindirər.

**Aparıcı:** Deyəsən, anası da bu fikri bəyəndi. Ananın üzü güldü.

**Ana:** Bax, bu, yaxşı fikirdir. Götür çantanı tez ol, gedək kitabxanaya.

**Aişə:** Bildim ki, gedirik...
Görəsən kitabxana necə yerdir? Məni orda necə macəralar gözləyir? Heç olmasa, bir dənə yarpaq varmı orda? Bircə tikə yeməsəm, lap acından ölərəm!
İşə bir bax, yenə bir qapı gördüm!
Salam, möhtərəm qapı, sən kimsən?

**Qapı:** Mən kitabxana qapısıyam, məgər bilmirsən?

**Aişə:** Səndən o biri tərəfdə nə var, yada sala bilmədim?

**Qapı:** Bilmək istəyirsənsə, gəl özün aç, gör.

Kitablar, kitablar, kitablar…

**Tırtıl:** Kitab qurdu olmaq nə gözəlmiş bu həyatda!
Bircə dənə yaşıl ağac tapa bilməzkən
Niyə hara getsəm kağız çıxır qarşıma?

**Aişə:** Əgər sən kitabları bir kağız sayırsansa,
Onda həqiqətən də çox sadəlövh tırtılsan!

**Tırtıl:** Sadəlövh? Ha? Ha? Ha? güldürmə görüm məni!
Sadəlövh olsam, bura necə gələ bilərdim?!
Hansı tırtıl gəzə bilər bir gündə
Bir məktəbi, bir parkı, bir də kitabxananı?

**Aparıcı:** Birdən Aişənin qarnından güclü bir qurultu qopdu. Bunu eşidən qapı istehza ilə baxdı.

**Qapı:** Səhərdən axşamacan gəzmisən, dolaşmısan, amma nə olsun, ağzına bir tikə yemək qoya bilməmisən.

**Tırtıl:** Mənim kimi ac tırtıl görməmisən sən yəqin,
Nə olar, kömək elə, nəhayət, bir şey yeyim!

**Qapı:** Ay tırtıl, bil ki, mənim görmədiyim şey yoxdur,
Bir belə kitab... Hər birində fərqli macəralar, qəhramanlar, məkanlar. Cürbəcür tırtıl gördüm, bəzisi ac, bəzisi də tox idi. Təəssüf ki, sənin problemini həll etməyə vaxtım yoxdur. Bəlkə bu kitablarda taparsan dərdinə çarə. Mənimsə işim çoxdur, hələlik, salamat qal!

**Tırtıl:** Aişənin oxuduğu kitaba sataşdı gözüm o anda.
Var gücümü toplayıb çıxdım çantadan.
Dərhal başladım oxumağa,
Elə həyacanlandım, aclıq çıxdı yadımdan,
Hekayənin axırı necə bitir, görəsən?
Partlayıram maraqdan!

Gələcəyimiz olan uşaqlara kitabları sevdirmək üçün 14 fevral Kitab bağışlama günü, aprelin 2-də Beynəlxalq Uşaq Kitabı Günü ənənəvi olaraq hər il uşaq kitabxanalarında qeyd edilir. Həmin günlərdə bir çox ölkələrin təhsil müəssisələrində, kitab klublarında və digər məkanlarda müxtəlif sərgi, müsabiqə, tamaşa, konfrans və festivallar, uşaq yazıçı və şairləri ilə görüşlər, yeni nəşrlərin təqdimat mərasimləri təşkil olunur. Şeir və hekayələrini dərsliklərdən, uşaq kitablarından oxuduqları yazarlarla məktəblilərin canlı olaraq ünsiyyət yaratması çox maraqlı olar.

Böyüklərə nisbətən uşaq beyni, uşaq dünyası daha həssas, nisbətən təcrübəsiz, saf və zəifdir. Oxuduğu hər kitab, eşitdiyi, şahidi olduğu hər xırda hadisə, hər əhvalat onların düşüncəsinə təsir edərək saf dünyalarının hətta yönünü belə dəyişmək iqtidarındadır. Uşaqların oxumalı olduğu

kitablarda diqqət yetirilməsi gərəkən başlıca amil kitabın ana xətti, oxucuya ötürmək istədiyi əsas fikirdir. Çünki xəyal dünyaları xeyli geniş və xeyli inkişaf etmiş olan uşaqlara kitabdakı əhvalat və hadisələrdən daha çox, bu əsərlərin şüurun alt qatında qoyduğu izlər təsir edir. Uşaqlarımıza kitab versəniz onlara qanad bəxş edərsiniz.

**Ədəbiyyat siyahısı:**

**Bayramova Z.** Kitab ən qiymətli hədiyyədir // Respublika. - 2020. - 1 mart. - S.8.

Bilik Fondu uşaqlara və gənclərə kitablar hədiyyə edib // Mədəniyyət. – 2017. - 17 fevral. - S.15.

Kitab bağışla
- kitab qazan...Beynəlxalq kitab bağışlama günü ölkəmizdə də qeyd edilib // Mədəniyyət. - 2018. - 16 fevral. - S.7.

Mənə kitab bağışla : 14 Fevral - Beynəlxalq Kitab Bağışlama Günü : mütaliə // Mədəniyyət.az. - 2016. - № 2. - S. 90-91.

**Müşfiq Ş.** Beynəlxalq Kitab bağışlama Günü qeyd edildi // 525-ci qəzet. - 2018. - 15 fevral. - S.8.

Nərimanoğlu M. Kitab dostumuz, ən dəyərli bilik mənbəyimizdir: 14 Fevral Beynəlxalq Kitab Bağışlama Günüdür //Azərbaycan. - 2022. - 13 fevral. - S.8.

Respublika Uşaq Kitabxanasından hədiyyə // Mədəniyyət. - 2020. - 19 fevral. - S.7.

**Salmanlı R.** Mütaliə uşaqları daha bilikli edir // Azərbaycan. - 2018. - 15 fevral. - № 35. - S. 11.

# Ruhumuzun Qidası Kitablar

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərmin Qədəmullazadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**